# Qurban cəmiyyətə insan sevgisi təlqin edir

***"Qurban bayramı İslamın mübarək iki bayramından biridir. Hicri-qəməri təqvimi ilə zilhiccə ayının 10-u Qurban bayramı kimi qeyd edilir. Qurban kəsmək Həcc ziyarətinin ayinlərindən biri sayılır. Allah evini ziyarət edən insanlar qurban kəsirlər. Qurbankəsmə mərasimi Həzrəti İbrahimin (ə.) və İsmayıl peyğəmbərin (ə.) adı ilə bağlıdır. Qurani-Kərimdə bu barədə danışılır və qurban rəmzi mənada nəfsani istəklərdən haqqın yolunda keçməyi ifadə edir. Qurban nəfslə mübarizəni tərənnüm edən bir bayramdır".***



Bunu "Xalq qəzeti"nə açıqlamasında "Məşədi Dadaş" məscidinin imamı, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi Hacı Şahin Həsənli bildirdi.

O, qeyd etdi ki, Qurban bayramı həm də ictimai əhəmiyyətə malikdir: "Bu bayram cəmiyyətdə paylaşmaq əhval-ruhiyyəsini yaradır. Xeyriyyəçilik ənənələrini möhkəmləndirir. Qurbanı ehtiyacsız, yəni maddi durumu yaxşı olan insanlar kəsməlidir. Qurbanlıq kifayət edəcək həddə ehtiyaclı ailələrə verilməlidir.

Qurban bayramı dinimizin ən önəmli bayramlardandır və Azərbaycanda da dövlət səviyyəsində qeyd olunan bir ayindir. Bu bayram artıq bizim milli adət-ənənəmizə çevrilib. Qurban, əslində, insanpərvərliyi təlqin edir. İnsan qurban kəsməklə haqq uğrunda fədakarlığa hazır olduğunu ifadə edir. Onun əsas mahiyyəti bundan ibarətdir.

Bütün xalqımızı Qurban bayramı münasibətilə təbrik edirəm.

***Şahxanım ƏLİZADƏ, "Xalq qəzeti"***